# Qəbələdə “Dini ekstremizm - ictimai və mənəvi dəyərlərə təhlükə mənbəyi kimi” mövzusunda regional seminar-müşavirə keçirilib

İyunun 24-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Dini ekstremizm - ictimai və mənəvi dəyərlərə təhlükə mənbəyi kimi” mövzusunda seminar-müşavirə keçirilib.



Seminar-müşavirədə DQİDK və Qəbələ Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidmətinin məsul işçiləri, Qəbələ, İsmayıllı, Ağsu və Oğuz rayonlarının yerli icra hakimiyyəti və hüquq-mühafizə orqanlarının, Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Seminar-müşavirədə Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlikdən, əmin-amanlıqdan, dövlət-din münasibətlərinin sağlam şəkildə qurulmasından danışan DQİDK-nın sədr müavini Səyavuş Heydərov qeyd edib ki, ölkəmizdə bütün dünyaya nümunə ola biləcək dövlət-din münasibətləri, tolerantlıq, multikulturalizm, birgəyaşayış ənənəsi formalaşıb. Azərbaycanın bu nümunəvi modelini qorumaq, yeni nəsillərə ötürmək hər birimizin borcudur.



Səyavuş Heydərov bildirib ki, hazırkı dövrdə dünyanın bir çox dövlətləri dini ekstremizm və terrordan ciddi əziyyət çəkir. Terror hadisələri səbəbindən dünyanın bir çox bölgələrində ictimai sabitlik pozulur, vətəndaş qarşıdurması yaranır, milyonlarla insan qaçqın və didərgin həyatı yaşayır. Cəmiyyətin dinclik və xoşbəxtliyinə səbəb olan dinin, əhalinin dinclik və etibarını təhdid edəcək şəkildə terrorçu və ekstremist qruplar tərəfindən istismarı dövlət təhlükəsizliyi üçün böyük təhdid yaradır. Bu baxımdan dinin insan mənəviyyatında, əxlaqında və ictimai şüurunda oynadığı mühüm rolun və təsirin doğru məcraya yönləndirilməsi mühüm məsələdir. Komitə rəsmisi diqqətə çatdırıb ki, bu gün dinlə bağlı məsələlərə sırf insan hüquqları və milli-mənəvi dəyərlər prizmasından deyil, həm də təhlükəsizlik baxımından yanaşılması dövlətin borcu və müstəsna hüququdur. Din dövlətdən ayrı olsa da dövlət ölkədəki dini duruma və vətəndaşların təhlükəsizliyinə görə bilavasitə məsuliyyət daşıyır. Onun sözlərinə görə, ölkəmizin inkişafını istəməyən qüvvələr tərəfindən Azərbaycana təkcə siyasi yox, həm də dini müstəvidə təsirlərin göstərilməsinə, yad dini ideologiyaların ixrac edilməsinə cəhdlər olunur. "Biz islami dəyərlərin Azərbaycanda inkişaf etməsini, İslam dininin mənəviyyat amili kimi həyatımızda olmasını istəyirik. Xalqımız İslam dinindən siyasi məqsədlər üçün istifadəyə, xurafata meyilliliyə, dini radikalizmə bundan sonra da imkan verməyəcək. Ölkə vətəndaşlarını, xüsusən də gəncləri yad təsirlərdən qorumaq üçün hər birimiz çalışmalıyıq, - deyə komitə sədrinin müavini vurğulayıb.

Seminar-müşavirə mövzu ətrafında müzakirələrlə işini yekunlaşdırıb.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**

# Qəbələdə beynəlxalq yarışa və ümumrespublika birinciliyinə start verilib

***İyunun 23-də Qəbələ şəhərində “Gənc xilasedici” VII Beynəlxalq yarışına və “Gənc xilasedici və yanğınsöndürən” VIII Ümumrespublika birinciliyinin final mərhələsinə start verilib.***

***Tədbirlər Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Fövqəladə Hallar Nazirliyi işçilərinin Həmkarlar İttifaqının, Təhsil, Gənclər və İdman nazirliklərinin və Qəbələ Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilir.***

***Tədbir iştirakçıları iyunun 22-də Bakı şəhərində Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə əklil qoyublar. Sonra Şəhidlər xiyabanında Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda şəhid olmuş oğul və qızlarımızın məzarları ziyarət edilib.***






İyunun 23-də Qəbələ şəhərində “Gənc xilasedici” VII Beynəlxalq yarışının və “Gənc xilasedici və yanğınsöndürən” VIII Ümumrespublika birinciliyinin açılış mərasimi keçirilib.

Mərasimdə çıxış edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, FHN-in Mülki müdafiə işinin təşkili Baş idarəsinin rəisi general-mayor Niyazi Zamanov, FHN-in İctimaiyyətlə əlaqə idarəsinin rəis müavini polkovnik Məhbubə Mustafayeva, FHN-in işçilərinin Həmkarlar İttifaqının sədri Mehman İsmayılov yarışların əhəmiyyətindən danışıb, belə müsabiqələrin keçirilməsinin yeniyetmə və gənclərin fövqəladə hallarla mübarizə sahəsində yeni təcrübələrin əldə etməsində mühüm rol oynadığını vurğulayıb, tədbir iştirakçılarına uğurlar arzulayıblar.

Sonra yarışlara start verilib.

Qeyd edək ki, “Gənc xilasedici və yanğınsöndürən” Ümumrespublika birinciliyi artıq 8-ci dəfədir ki, təşkil olunur və bu yarışların keçirilməsində məqsəd yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilər arasında sağlam həyat tərzinin təbliği, onlara şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin və hərbi-vətənpərvərlik ruhunun aşılanmasıdır. Yarış ümumilikdə 5 mərhələdə - rayon (şəhər), zona və ümumrespublika yarışları mərhələsində təşkil olunur. Zona yarışlarında qalib gəlmiş komandalar Ümumrespublika final yarışlarında iştirak edirlər. Builki Ümumrespublika birinciliyində 12 rayon və şəhərin komandaları birincilik uğrunda mübarizə aparacaqlar.

“Gənc xilasedici” VII Beynəlxalq yarışında isə Azərbaycan, Türkiyə, Rusiya (Moskva və Ufa), Belarus, Pakistan, Qətər, Gürcüstan, Rumıniya, Ukrayna, Serbiya, Bolqarıstan respublikalarının komandaları qüvvələrini sınayacaqlar. Yarışlar iyunun 30-na kimi davam edəcək.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**